ədalət.- 2020.- 15 avqust.- S.5.

Şeir və şair mifi

Vaqif Aslan

Əbəs yerə deyildir ki, filosoflar mifi "şəxsiyyət forması" və "möcüzə" adlandırmaqla yanaşı, həm də "dialektika" hesab edirlər. Ədəbiyyat isə "mif"i "söz" kimi qiymətləndirir. Özündən və dünyasından uzaqlaşma, özünə və dünyasına yaxınlaşma mif və şeir üçün ortaq əlamətdir. Mifik və poetik uzaqlaşma və ya yaxınlaşma məzmun içində məzmun, forma işində forma tapıntısına səbəb olur. Şair real hadisələr içərisindən insan və cəmiyyət üçün xarakterik olanı seçib ayırır , özündən uzaqlaşdıraraq və ya özünə yaxınlaşdıraraq ədəbi -fəlsəfi prizmadan baxdıqca onu poetikcəsinə yaşayır. Kentavrlar, qippoqriflər, yeddibaşlılar, oxbatmazlar, qılınckəsməzlər, topdağıtmazlar mifik-poetik uzaqlaşma və yaxınlaşmada öz mahiyyəti və məzmunu ilə görünən reallıqlardır. Şairin böyüklüyü mifik-poetik uzaqlaşma və yaxınlaşma bacarığının səviyyəsi ilə ölçülür.

B.Vahabzadəni sözümüzün ağsaqqalı edən əsas amil onun tam aydın göründüyü anda hadisə və faktdan uzaqlaşa bilməsi, formadan daha çox məzmun və mahiyyətə yaxınlaşmasıdır.

Mif semantikasındakı hissi-idraki qavrayış ilə söz semantikasındakı bədii düşüncənin üst-üstə düşməsindən şeir və şair mifi yaranır. Bu mifin nüvəsində isə böyük sevgi dayanır. Məsud Əlioğlunun bu fikri necə də yerinə düşür:

"Bəxtiyar Vahabzadə sevilən şairdir. Fəqət sevilə bilmək üçün sevməyi bacarmaq lazımdır. Sevə bilmək isə istedadlı olmağın bariz xüsusiyyətidir" (Bax. Məsud Əiloğlu. Şair ləyaqəti, şair sevgisi."Ədəbiyyat və incəsənət" qəzeti, 1972, 26 fevral, səh.4.; Bəxtiyar Vahabzadə. Əsərləri. XII cild. Bakı, "Elm", 2009. səh. 684).

Sözü möcüzə səviyyəsinə

qaldırmaq üçün şair özünü və dünyasını bütövlükdə görməyə can atır. Şəxslər sonsuzluğunda öz şəxsiyyətini , ölçülərin ölçüsüzlüyündə öz dünyasını görə bilmək üşün şair özündən və dünyasından uzaqlaşıb ona kənardan baxmağı, baxdıqca da dəyərləndirməyi bacarmalıdır. Burada təmənnasızlıq və təbiilik əsas şərtdir. İlyas Əfəndiyev demişkən:

"Bəxtiyar hər nə yazırsa, ürəkdən yazır, təbii yazır, təmənnasız yazır"(12. İlyas Əndiyev. Şairin lirası. "Ədəbiyyat və incəsənət" qəzeti,1984, 16 noyabr, səh.3.; Bəxtiyar Vahabzadə. Göst. Cild, s. 669). Üstəlik şair özünə enməklə bərabər, gördüyü və təsəvvür etdiyi dünyaya nüfuz etmək səviyyəsində olmalıdır.

Əslində bu da azdır: şair bunları hissin və idrakın süzgəcindən keçirməlidir. Bu isə taleyin hökmü ilə olur. "Bəxtiyar dərin axtarışda olan və narahat düşüncələr şairidir" deyənYeqor İsayev (Bəxtiyar Vahabzadə. Göst. Cild, s. 717), "Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləcək dərəcədə böyük olan poetik istedadıdır" deyən Rəsul Rza (Bax. Rəsul Rza. Bəxtiyarlıq. "Ədəbiyyat və incəsənət", 1975, 23 avqust, səh. 2), "Mən Bəxtiyar Vahabzadəyə müəllim deyirəm, çünki onun şeirlərini oxuyanda, yaxud tərcümə edəndə ondan öyrənirdim və öyrənirəm" deyən Rimma Kazakova (Bəxtiyar Vahabzadə. Göst. Cild, səh. 723), "Onun yaradıcılığında istedad, mədəniyyət, lirikanın gücü və həyat təcrübəsi ahəngdar birləşir" deyən Stanislav Kunayev (Bəxtiyar Vahabzadə. Göst. Cild, səh. 725) necə də haqlı idilər.

Unudulmaz tənqidçi-alim,

türkoloq Aydın Məmmədov B. Vahabzadə poeziyasını "vətən torpağından göyərmiş poeziya" hesab edir və onu "... əzabkeş fikrin, dünya, insan, sevgi və azadlıq haqqında çırpıntıların poeziyası" kimi qiymətləndirirdi (Bax.B.Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə. Ic. Bakı, Yazıçı, 1983, səh.7). "Məhz nəslinə, xalqına, kökünə bağlılıq, təkrarsız, fərdi, milli çalar Bəxtiyar şeirini çağdaş Azərbaycan poeziyasının faktına və hadisəsinə çevirib, ondan müasir şərq və dünya şeir prosesinin məcrasında danışmağa əsas və haqq verib" (Yaşar Qarayev. Azərbaycan Ədəbiyyatı: XIX və XX yüzilliklər.Bakı, "Elm", 2002, səh. 658) deyən div ədəbiyyatşünas Yaşar Qarayev B. Vahabzadə yaradıcılığını aşağıdakı kimi dövrləşdirirdi:

"Onun yaradıcılığının I dövrü məktəb şeirləridir, o - şair kimliyini o zaman qazanır, II dövrü - tarix və dünya adlı səyahətə çıxır, III dövrü özünə səyahət, özünə enmə dövrüdür" (Bax. Türkiye dışındakı türk edebiyatları antolojisi. Azerbaycan türk edebiyatı. Ankara, 1997, səh., 136).

"A"-dan "ana" yazdıq, "b"-dənsə "baba",
"V"-dən "Vətən" yazdıq, "e"-dən "el", "oba".
Ana yurdumuzu bu səslərlə sən
Ruhuna, qəlbinə həkk edəcəksən.

Və ya:

Yaz ayları çağıldayan selmisən?
Bu dünyanı oyuncaqmı bilmisən?
Həyat səni güldürəndə gülmüsən,
Hünərin var, ağladanda gül, görüm.

Yaxud:

Baxdım məzarçıya, bir də qəbrə mən,
Qəlbimin nidası çıxdı dilimdən:
- Məzar tikən üçün tikdiyi qəbir
Çörək ağacıdır, mənimçün fikir.

B. Vahabzadə yaradıcılığından gətirilən bu nümunələr ömrün ayrı-ayrı mərhələlərində insan düşüncəsinin necə dəyişdiyini aydınca əks etdirir. Elə buna görə də, B. Vahabzadə yaradıcılığında məktəb şeirlərindən vətən şeirlərinə keçid tamamilə təbii surətdə baş vermişdir.

Çünki burada aparıcı xətt ana südündən ana məktəb sevgisinə, ana məktəb sevgisindən ana vətən sevgisinə çevrilməklə davam etmişdir. Bu da, əlbəttə ki, ən sonda özünü və dünyanı dərk etmək cəhdinə çevrilməli idi. Rus imperiyasının qanlı caynaqları sözümüzə, şerimizə qarşı yönəldikcə Bəxtiyar poeziyası da daha çox qatılaşmalıydı.

Ehramlar ölkəsində sıxıla-sıxıla gəzən ərəblə türklüyünü danan azərbaycanlının tale oxşarlığı göz qabağında olduğundan onu görməmək mümkün deyildi. Ölü dil hesab edilən latın dilindən söz açan şair elə Azərbaycanda da Azərbaycan dilinin öldürülməsinə işarə edərək yazırdı:

"Mən azadam", "müstəqiləm" sözlərini
Öz dilində deməyə də
ixtiyarın yoxsa əgər,
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?

B. Vahabzadə "Yollar-oğullar" poemasında hadisələri Əlcəzair müstəvisinə keçirməklə, təmiz qanlı ərəblə fransızlara calaq edilmiş ərəbin- Etyenlə Mustafanın fərqinə varmalı idi:



Mustafa "Mənimdir bu ana torpaq"
Deyə gəlmələrə oxudu meydan.
Silib, təmizləmək istədi, ancaq
Vətəni Etyenin dayılarından.

***

Sovet dönəminin bütün tarix kitablarında "Gülüstan sülh müqaviləsi"ndən yazılırdı və bunu Azərbaycan xalqının tarixi xoşbəxtliyi kimi qiymətləndirirdilər. Əlbəttə ki, B.Vahabzadə ilə bir əsrdə yaşayanların çoxu bu müqavilə haqqında bilirdi. Onları 1813-cü il hadisələrindən öz günlərinədək olan dövr ayırırdı. Onların hadisə və faktdan uzaqlaşma məsafəsi elə o qədər idi. Onlar da bilirdilər ki,"Gülüstan" Rusiya ilə İran arasında bağlanan sülh müqaviləsidir. Burada Azərbaycanın iştirakı yoxdur.

Azərbaycanı müharibədə əldə edilən qənimət kimi bölüşdürəndən sonra hər iki tərəfin - Rusiya ilə İranın özlərindən razılıq hissi ilə imzaladıqları sənədin obrazlı, düşünülmüş, reallıqda görünə bilməyən tərəflərini görmək poetik uzaqlaşmada mümkün ola bilərdi.

Elə buna görə də, "Gülüstan sülh müqaviləsi"ni günün reallığı kimi qəbul edib barışanlar B.Vahabzadənin intellektual-poetik "Gülüstan" harayından diksinib qalxdılar.

B.Vahabzadə real-tarixi hadisəyə elə bir güzgü tutmuşdu ki, orada türklüyümüzün, ləyaqət və heysiyyətimizin necə tapdalandığı, necə dəhşətli bir amansızlıqla iki şaqqa edilməyimiz aydın, özü də çox aydın görünürdü. Bu aydınlıqda oyanmaqda olan milli mənlik hissini ört-basdır etmək mümkün deyildi.

Çünki poetik işıqda görünməyən yerimiz yox idi və sovet ideologiyasının mifik təbliğat maşını sındırılmışdı. Artıq hər bir Azərbaycanlı üçün konkret vətən var idi:

... Vardırsa yaranmış,
Mütləq yaradan var.
Varsansa,..
özündən
Əvvəlcə atan var.
Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz.
Yüz-yüz itən olsun,
Min-min də bitən var.
Şükr eyliyəlim ki,
Bizlərdən həm əvvəl,
Həm sonra Vətən var.

Bəxtiyar Vahabzadə yaradıcılığını "tarixin şah damarını axtarmaq" cəhdi kimi qiymətləndirən tənqidçi, türkoloq-alim Aydın Məmmədovun 1981-ci ildə qələmə aldığı "Zamanla səsləşən şeirlər sorağında" adlı II məqaləsindəki bir məqamı yada salmaq istərdim. O yazırdı:

"Şükr eyləyəlim ki", ifadəsi mətn daxilində qəribə bir təlqin gücü qazanır, nisbətən mücərrəd səciyyə daşıyan vətənpərvərlik məfhumunu sanki göylərdən yerə endirərək, dünyanın bir parçasını, bir küncünü doğma yurda, (onu) Vətən deyib əzizləyən hər kəsin gündəlik və əbədi sevincinə, həyat enerjisinə çevirir" (Bax. A. Məmmədov.

Sözümüz eşidilənədək. Zamanla səsləşən şeirlər sorağında. II məqalə. Bakı, "Yazıçı", 1988, səh. 40).

***

"1988-ci ildən başlayaraq yalnız yaradıcılığı ilə deyil, həm də fəal ictimai-siyasi mövqeyi ilə hadisələrin mərkəzində olan" (Bax. Həbibulla Manaflı. Gen yaddaşımızın poeziya dili. Bakı, Oka Ofset-2008, səh. 99) B. Vahabzadə 1990-cı ilin 20 Yanvar gününü bütün şiddəti ilə yaşamışdı. O məşum günün şəhidlərinə həsr etdiyi poemada azadlığın yaxında olduğunu hamıdan daha çox hiss etmişdi:

Onlar sübut etdi , hər qara zülmün
Əli uzunsa da , ömrü gödəkdir.
Xalqın azadlığı sabah , biri gün
Şəhid yarasından göyərəcəkdir.

Şəhid qanı ilə suvarıldıqca

böyüyən və qol-budaq atan azadlıq ağacını görmək B.Vahabzadəyə birdən-birə nəsib olmamışdı. O bura qədər mifik-poetik bir ovqatla M.Ə.Sabirin "necə ağlayıb necə güldüyünü" yaşamışdı, "tamam qəmzadələrin və möhnətkeşlərin yüklərini götürmək və məzlumların halına yanmaq üçün xəlq olunan" M.Füzulinin "şəbi-hicran" alovunda necə şölə çəkdiyinə baxa-baxa isinmək eşqi ilə hadisə və faktlara 500 illik məsafədən nəzər salmışdı. B.Vahabzadə təxəyyülündə bu zaman M.Füzulinin ahı, göz yaşları və ürəyinin odu ilə günbəgün pardaxlanıb gözəlləşən, gözəlləşdikcə ilahiləşən iki Leyla görünmüşdü: bunlardan birincisi sevgili Vətən , ikincisi isə sevgili Vətənin yetirdiyi məhəbbət çiçəyi idi.

B. Vahabzadə qələmində Füzuli Vətənə və Vətən çiçəyinə elə bir sevgi , elə bir şövq , elə bir zövq ilə baxmışdı ki, Vətən də, çiçək də həsrətli gecələrin qaranlıqlarını dəlib keçən odlu baxışların nuruna boyanmışdı. Bu həsrətə sancılan vüsal işığında Vətən də , Vətən çiçəyi də lalərəng görünürdü. Onların üzərinə Füzuli ürəyinin qanı çilənmişdi. Elə buna görə də , Vətənin də , Vətən çiçəyinin də ürəyinə xal düşmüşdü, həm də bu "şəbi-hicran" 500 il idi ki, uzanırdı. "Azərbaycan türklərinin fikir və sənət dünyasına bir işıq şəlaləsi kimi daxil olan" B. Vahabzadə (Yavuz Büləndl Bakilər. Bir neçə söz. Bax. Bəxtiyar Vahabzadə. Əsərləri. XII cild. səh. 757) qatı qaranlıqlar, parlaq işıqlar içərisində qalan Füzulinin elə özü olduğunu görmüş, titrəyib özünə dönmüşdü - mifik "şəbi-hicran"ı poetik "Şəbi-hicran"a çevirmişdi.

(ardı növbəti sayımızda)